AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№334/4** **07 sentyabr 2021-ci il**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının "Auditor xidməti bazarında haqsız rəqabət hallarının aradan qaldırılması üçün qabaqlayıcı tədbirlər barədə" 2004-cü il 28 dekabr tarixli 143/1 nömrəli qərarında dəyişiklər edilməsi barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ölkəmizdə həyata keçirilən iqtisadi islahatların sürətləndirilməsində, şəffaflığın artırılmasında, korrupsiyaya, dempinqə və haqsız rəqabətə qarşı mübarizədə və audit peşəsinin nüfuzunun yüksəldilməsi sahəsində davamlı mübarizənin aparılması məqsədilə, Auditin təşkili, hesabatlılıq və informasiya idarəsi (V.Cavadov) tərəfindən təqdim edilmiş layihəyə Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinin rəisi E.İbrahimov, Auditorlar Palatası Şurasının üzvü, sərbəst auditor A.Cəfərov və Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi V.Rəhimov tərəfindən verilmiş rəyləri (əlavə olunur) müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının "Auditor xidməti bazarında haqsız rəqabət hallarının aradan qaldırılması üçün qabaqlayıcı tədbirlər barədə" 2004-cü il 28 dekabr tarixli 143/1 nömrəli qərarının 9-cu "Sərbəst auditorlar və auditor təşkilatları üçün hər bir təsərrüfat subyektində (fəaliyyəti olmayan təsərrüfat subyektləri istisna olmaqla) auditin aparılması müddəti ən azı 3 (üç) gün müəyyən edilsin" və 12-ci "Sərbəst auditorlar və auditor təşkilatlarının hər bir auditoru tərəfindən bir gün ərzində bir auditor rəyindən artıq auditor rəylərinin verilməsi qadağan olunsun və həmin auditor rəyləri inamsız hesab edilsin" bəndləri aşağıdakı redaksiyada verilsin:

- 9. "Sərbəst auditorlar və auditor təşkiltları üçün hər bir təsərrüfat subyektində (fəaliyyəti olmayan təsərrüfat subyektləri və bələdiyyələr istisna olmaqla) maliyyə hesabatlarının auditinin aparılması müddəti ən azı 3 (üç) gün müəyyən edilsin".
- 12. "Sərbəst auditorlar və auditor təşkilatlarının hər bir auditoru tərəfindən bir gün ərzində maliyyə hesabatlarının auditinin aparılması zamanı (bələdiyyələr istisna olmaqla) bir auditor rəyindən artıq auditor rəylərinin verilməsi qadağan olunsun və həmin auditor rəyləri inamsız hesab edilsin".

2. Aşağıdakı redaksiyada yeni 13-cü bənd əlavə edilsin:

- "Auditorların əlaqəli auditor xidmətləri və bələdiyyələrdə maliyyə hesabatlarının auditləri üzrə hər bir auditor tərəfindən bir gün ərzində 3-dən artıq auditor rəylərinin verilməsi qadağan edilsin və həmin auditor rəyləri inamsız hesab edilsin".

3. Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, üç ay müddətində bu qərarda dəyişikliklərə uyğun olaraq şəxsi kabinet sistemində müvafiq dəyişikliklərin edilməsi təmin edilsin.

4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, üç gün müddətində qərarda olan dəyişikliklər barədə məlumatın auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

5. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**